**UOT: 930.85.**
**KBT: 71. 05**

***Seyran QULİYEV*** [*]
*(Azərbaycan)*

*Bakı Dövlət Universiteti*

# MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN AZƏRBAYCAN MODELİNİN MAHİYYƏTİ

**Məqaləyə istinad:** Quliyev, S., [2021] *Mədəniyyətlərarası dialoqun Azərbaycan modelinin mahiyyəti*. “Metafizika” jurnalı. № 4 (16), səh. 7-26

**Annotasiya**

Qədim tarixi, əlverişli geosiyasi mövqeyi və zəngin etnik tərkibi ilə seçilən Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin qovuşduğu, bir-biri ilə dialoqa girdiyi və harmoniyada yaşadığı məkandır. Azərbaycan cəmiyyətində tarixən formalaşmış tolerant və multikultural mühit, başqa sözlə ifadə etsək dözümlülüyün və multikulturalizmin həyat tərzinə çevrilməsi, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və konfessiyaların adət-ənənələrinin qorunmasına imkan vermişdir. Bu amil çoxmillətli və çoxkonfessiyalı respublika kimi ölkəmizi dünyada tolerantlığın və multikulturalizmin yüksək səviyyədə təmin olunduğu, o cümlədən də sivilizasiyalar və mədəniyyətlərarası dialoqların keçirildiyi məkan kimi tanıtmışdır. Respublikamızdan fərqli olaraq bu gün dünyanın müxtəlif ölkələrində müşahidə olunan dözümsüzlük, zorakılıq, ekstremizm,

[*] BDU-nun doktorantı; Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Qorunması üzrə Dövlət Xidmətində baş məsləhətçi
e-mail: seyran_quliyev@mail.ru
https://orcid.org/0000-0002-6703-2037

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.06.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 17.07.2021*
*Çapa qəbul edilmişdir: 01.12.2021*

ksenofobiya, islamofobiya kimi mənfi meyillərin artması, mədəni və tarixi irsin məhv edilməsi narahatlıq doğurmaya bilməz. Belə olan halda mədəniyyətlərarası dialoqun gücləndirilməsinə, mənfi tendesiyaların bütün formalarına qarşı birgə mübarizə aparılmasına və bunun təşviqinə ciddi zərurət yaranır. Bu məqsədə nail olmaq üçün bütün ölkələr tərəfindən xüsusi səylər göstərilməsi vacibdir. Qlobal problemləri heç bir ölkə təkbaşına həll etmək iqtidarında deyil.

Son illərdə qeyd olunan məsələlərə həsr olunmuş onlarla beynəlxalq mötəbər tədbirə ölkəmiz ev sahibliyi etmiş və Azərbaycan "Bakı prosesi" təşəbbüsü ilə çıxış etmişdir.

Bu məqalədə Azərbaycanda tolerantlığa və multikuluralizmə nəzər salmaqla mədəniyyətlərarası dialoqun Azərbaycan modelinin mahiyyətini açmağa çalışıraraq yuxarıda qeyd olunan mənfi meyillərin aradan qaldırılmasına ölkəmiz tərəfindən verilən töhfəni "Bakı Prosesi" timsalında nəzərə çatdırmaq istəyirik.

**Açar sözlər:** tolerantlıq, Azərbaycanda tolerantlıq ənənəsi, multikulturalizm, Azərbaycanda multikulturalizm, mədəniyyətlərarası dialoq, "Bakı Prosesi".

## Giriş

Bu gün müxtəlif regionlarda, sivilizasiyaların bir-birilə qarşılıqlı təsirdə olduğu, müasir və qloballaşan dünyamızın fərqli-fərqli yerlərində dini və etnik qrup nümayəndələri arasında anlaşmanın və dözümlülüyün olmamasından müxtəlif formalarda toqquşmaların yaşandığının şahidi oluruq.

Hələ 1996-cı ildə məşhur amerikalı politoloq Samuel Hantinqton *"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması"* əsərində qeyd edirdi ki, ictimai inkişafda etnik-mədəni dəyərlərin, mədəniyyətin aparıcı rol oynaması muasir dövrümüzdə sivilizasiyaların toqquşmasını labüd edəcək.

Son dövrlərdə Şərqlə Qərbin, İslam dünyası ilə xristianlığın qarşı-qarşıya qoyulması, ksenofobiya, islamofobiya, irqçilik, radikalizm, ekstremizm və dini ayrı-seçkilik kimi mənfi təzahürlərin artması Samuel Hantinqtonun yuxarıda qeyd olunan təhlükəli proqnozunun reallığa çevrilə biləcəyinin xəbərçiləridir.

Belə təhlükəli tendensiyaların qabağını almaq, dünyada sülhü-təhlükəsizliyi və birgəyaşayışı bərqərar etmək məqsədilə xalqlar və millətlər arasında dözümlülüyün gücləndirilməsinə xidmət edən mədəniyyətlərarası dialoq kimi ümümbəşəri mütərəqqi ideyalara böyük ehtiyac vardır.

p-ISSN 2616-6879
e-ISSN 2617-751X

Bu məqalədə bizim məqsədimiz ölkəmizdəki tolerant mühit və multikulturalizmdən doğmuş mədəniyyətlərarası dialoqun Azərbaycan modelini dünya xalqları üçün öz imkanlarımız daxilində açmaq və bu məsələlərə ölkəmiz tərəfindən verilən töhfəni nəzərə çatdırmaqdır.

**Azərbaycanda tolerantlıq**

Tolerantlıq və mültikulturalizm mədəniyyətlərarası münasibətlərin təməl prinsiplərindəndir. Bu baxımdan çağdaş dövrümüzdə hər iki ideya xüsusi aktuallıq kəsb edir. Azərbaycanda isə tolerantlıq və multikulturalizm sözün əsl mənasında təcrübəyə çevrilmişdir. Ölkəmizdə bu ideyaların tarixi köklərə əsaslanması və müvafiq sahə üzrə düzgün dövlət siyasətinin aparılması fikrimizcə uğurumuzun əsas amillərindəndir.

Nədir tolerantlıq? Tolerantlıq və ya multikulturalizm deyərkən nə başa düşülür? Əvvəla, bu anlayışlara qısaca aydınlıq gətirək:

“Tolerantlıq” sözünün etimoloji mənası (lat. “tolerancia”) “dözüm”, “səbr” anlamına uyğun gəlir. Məlumdur ki, tolerantlıq problemini ilk tədqiq edən ingilis filosofu Con Lokk (1632-1704) “Tolerantlıq haqqında öyüdnamə” (“Epistola de tolerancia”) əsərində tolerantlığı əsl, həqiqi kilsənin mühüm səciyyəsi kimi əsaslandırmağa çalışmışdır.

C.Lokk hesab edirdi ki, əgər dində məhəbbət, iltifat və mərhəmət yoxdursa, o, həqiqi sayıla bilməz. Yalnız dini müxtəlifliyə dözümlülük, cəmiyyətə sülh bəxş edə bilər [8, s. 12]. C. Lokkdan savayı F.Volter də “Dini dözümlülüyə dair” əsər yazmış və sonrakı dövrlərdə Nikolay Kuzanski, P.de Mirandola, E.Rotterdamskinin və başqalarının əsərlərində bu anlayış inkişaf etdirilmişdir.

Elmi mənbələrdə tolerantlığın mahiyyətinin aşağıdakı kimi açıqlandığını görürük.

Tolerantlıq dedikdə - müxtəliflik və fərqlərin qəbul edilməsi, onlara hörmət və rəğbət nəzərdə tutulur. O, həm də başqalarının hüquqlarını tanımaq, fərqli düşüncə tərzinə maliklik anlamı əsasında münaqişə və ziddiyyətlərin həlli yollarının axtarılmasını təmin edən əxlaqi imperativdir.

Çox hallarda tolerantlıq özgəsinin qüsurlarını güzəştə getmək, nəyə isə dözümlü şəkildə barış yolunu tutmaq, başqa fikrin mövcudluğunu obyektiv fakt kimi qəbul etmək və s. başa düşülür.

Filosoflara görə, tolerant düşüncə tərzi - cəmiyyətin tarixi inkişafının məhsulu, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgəyaşayışının nəticəsidir [2, s. 166-167].

YUNESKO-nun qəbul etdiyi “Tolerantlıq prinsiplərinə dair bəyannamə”də (1995) “Tolerantlıq” - dözümlülük anlayışına dair birinci maddədə deyilir:

Maddə 1. Dözümlülük anlayışı.

1.1. Dözümlülük dünyamızın zəngin, rəngarəng mədəniyyətlərinin, insan fərdiyyətinin özünü ifadə etmə və būruzə formalarının qəbulu, düzgün dərki və onlara hörmət deməkdir. Ona bilik, aşkarlıq, ünsiyyət və fikir, vicdan və məslək azadlığı xidmət edir. Dözümlülük rəngarəng xüsusiyyətlərin birliyidir. Bu təkcə mənəvi borc deyil, həm də siyasi və hüquqi tələbatdır. Dözümlülük sülhə nail olmağı mümkün edir və müharibə mədəniyyətindən sülh mədəniyyətinə aparır.

1.2. Dözümlülük güzəşt, mərhəmət və ya pis şeylərə göz yummaq deyil. Dözümlülük hər şeydən əvvəl insanın hərtərəfli hüquq və əsas azadlıqlarını etiraf əsasında formalaşan fəal münasibətdir. Heç bir halda dözümlülük bu əsas dəyərlərə edilən qəsdlərə haqq qazandıra bilməz. Ayrı-ayrı şəxslər, qruplar və dövlətlər dözümlülük göstərməlidirlər.

1.3. Dözümlülük insan hüquqlarının, plüralizmin (o cümlədən mədəni plüralizmin), demokratiyanın bərqərar olmasına və qanunun təntənəsinə kömək etmək vəzifəsidir. Dözümlülük ehkamçılığı, həqiqəti mütləqləşdirməyi rədd edən və insan hüquqları sahəsində beynəlxalq hüquqi aktlarda müəyyən edilmiş normaları təsdiq edən bir anlayışdır. İnsan hüquqlarına hörmətlə həmahəng olan dözümlülüyün təzahürü sosial ədalətsizliyə dözümlü münasibət, öz əqidələrindən imtina və ya başqalarının əqidələrinə güzəşt deyildir. Bu, o deməkdir ki, hər kəs öz əqidəsində azaddır və başqalarının da həmin hüququnu tanıyır. Bu, o deməkdir ki, insanlar təbiətcə öz xarici görünüşlərinə, vəziyyətlərinə, nitqlərinə, davranış və dəyərlərinə görə fərqlənirlər və əmin-amanlıqda yaşamaq, öz fərdiliklərini qoruyub saxlamaq hüququna malikdirlər. Bu, həm də o deməkdir ki, bir adamın fikirləri başqalarına zorla qəbul etdirilə bilməz [34].

Yuxarıda qeyd olunanlara əsasən bu nəticəyə gələ bilərik ki, “multikulturalizm” anlayışı ilə müqayisədə xeyli qədim olan tolerantlıq daha genişdir. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev bildirirdi:

> *“Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. Təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir” [3. s. 11].*

Bu baxımdan tolerantlıq ideyası, fikrimizcə, bəşər tarixində ortaya atılan ən ali dəyərlərdən biri kimi qiymətləndirilməlidir. Dünya tarixində, keçmişdən bu günə qədər baxdıqda cəmiyyətdə baş verən bir çox münaqişələrin səbəbi kimi dözümsüzlüyün ön plana çıxdığının şahidi oluruq. Bu səbəbdən dinlərarası,

p-ISSN 2616-6879
e-ISSN 2617-751X

mədəniyyətlərarası dialoqların keçirilməsinin vacibliyi bir daha əsaslandırılmış olur.

Sevindirici haldır ki, ölkəmizdə dözümsüzlüyə rast gəlinmir və burada tolerantlıq, eyni zamanda multikulturalizmin hakim olması dünya ölkələri tərəfindən də etiraf edilir.

Azərbaycanda tolerantlığın hakim olma səbəblərinə gəlincə qeyd edə bilərik ki, bölgəmizdə gedən tarixi proseslər, ölkəmizin geosiyasi mövqeyi, mühüm ticarət yollarının üstündə yerləşməsi, əhalisinin etnik tərkibi bu ərazidə fərqli dinlərin və cərəyanların mövcudluğuna gətirib çıxarmışdır. Bunu tarixi mənbələr, ədəbi-bədii qaynaqlar və mədəni abidələr də təsdiq edir. Belə ki, Qafqazda ən qədim kilsə sayılan Kiş məbədi (I əsr) və Cənubi Qafqazın ən qədim islam dini ibadətgahı olan Şamaxı Cümə məscidinin (743-cü il) mövcudluğu təsdiqləyir ki, bu ərazilərdə müxtəlif dinlər hələ ortaya çıxdıqları ilk dövrlərdə özlərinə ardıcıllar taparaq fəaliyyət göstərmişdir. Sonrakı illərdə də məscid, kilsə və sinaqoqların tikilib istifadəyə verilməsi tolerantlıq baxımından ölkəmizdəki durumun müsbət mənada əyani göstəricilərindəndir. Məsələn, Quba rayonunun Qırmızı qəsəbəsində "Altı günbəz" (XIX əsr) adlandırılan sinaqoq yəhudilərin Quba xanı Hüseynəli xanın icazəsi ilə altı gün ərzində bura köçüb gəlmələrinin rəmzidir.

Ölkəmizdə müxtəlif dinlərin və etnosların təmsilçiləri tarix boyu bir-birilərinin mədəni və mənəvi baxışlarına hörmətlə yanaşmışlar. Azərbaycan dövlətinin əhatə etdiyi ərazilərdə tarixin heç bir dönəmində dini və ya mili zəmində qarşıdurmaların olmaması bunu deməyə əsas verir. Bu nüans onu göstərir ki, ölkəmizdə tolerantlıq, dözümlülük kimi müsbət yanaşmalar hələ qədim dövrlərdən mövcud olmuşdur. Bu münasibət, yəni dözümlülük çağdaş dövrümüzdə daha da dərinləşmiş və tarixdən süzülüb gələn milli və dini tolerantlığın Azərbaycan modeli formalaşmışdır.

Hazırda Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar (yəhudilik, xristianlıq, müsəlmanlıq) və bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst fəaliyyət göstərir, ölkəmizdə müxtəlif dinlərin mənsubları çox rahat şəkildə öz ibadətlərini edə bilir və dövlət tərəfindən himayə olunurlar. Respublikamızda Qafqaz Albaniyası dövrünə aid qədim kilsələr, həmçinin müxtəlif milli azlıqlara məxsus tarixi pravoslav, katolik və lüteran məbədləri, yəhudi dininə məxsus sinaqoqlar və s. Azərbaycan mədəni irsinin nümunələri kimi qorunur, müxtəlif dini konfessiyalara məxsus ibadət yerləri dövlət tərəfindən təmir-bərpa edilir və dini qurumlara dövlət dəstək verir.

Yeri gəlmişkən qeyd edək ki, ölkəmizdə siyasi müstəvidə dövlət-din münasibətlərinin tənzimlənməsində, bu sahədə sabitliyə nail olunmasında və

hüquqi bazanın zənginləşdirilməsində Ümümilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasına (1995) *"Bərabərlik hüququ"* maddəsinin salınması və burada dinindən və əqidəsindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə dövlət tərəfindən təminat verildiyinin qeyd olunması, o cümlədən "Vicdan azadlığı" maddəsində hər kəsin vicdan azadlığının olması və dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malik olmasının bildirilməsi ölkədə tolerantlığa, vicdan və dini etiqad azadlığına verilən ən böyük dəyərin ilk nümunələri kimi qiymətləndirilməlidir. Ümumilli liderin mühüm addımlarından biri də, 2001-ci ildə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini məsələlər üzrə işin səmərəliliyinin artırılması, o cümlədən dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarət edilməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə fərman imzalamasıdır.

Müvafiq dövlət siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidentinin adminstrasiyasında "Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər" şöbəsinin fəaliyyət göstərməsi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2016-ci ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması, dini qurumlara hər il maliyyə yardımı göstərilməsi barədə Sərəncam imzalanması və s. Azərbaycan Respublikasında haqqında danışılan məsələlərə yüksək diqqət göstərildiyinin əyani göstəriciləridir. Həmçinin, 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında tolerantlıq naminə ölkəmizdə və dünyada bir sıra uğurlu layihələrin həyata keçirilməsini də buraya əlavə edə bilərik. Heydər Əliyev Fondunun rəsmi saytına istinadən həmin çoxsaylı işlərdən bir qisminin adlarını qeyd etmək istərdik:

2006-cı ildə Qəbələnin Nic qəsəbəsində "Cotari" Alban-udi kilsəsinin təmir olunması, 2007-ci ildə Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işlərinin aparılması, 2008-ci ildə Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələrinin dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilməsi, eyni zamanda məbədin fasadına keramik panno yerləşdirilməsi, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işlərinin görülməsi, "Tolerantlığın

ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsininin bərpa edilməsi, 2013-cü ildə Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım göstərilməsi, 2013-cü ildə Roma şəhərinin ətrafında yerləşən və xristian aləmi üçün önəmili hesab olunan Müqəddəs Marçellinio və Pietro katakombalarında bərpa işlərinin aparılması, Vatikanda yerləşən Müqəddəs Sebastian katakombaları (2016-2018) və Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı “Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü” barelyefinin bərpa edilməsi (2019), Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban Kilsəsinin Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa olunması (2020) və daha bir beynəlxalq layihənin- Vatikanda indiyədək ictimaiyyət üçün qapalı olan Komodilya katakombalarını bərpa olunması ilə bağlı Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında yeni əməkdaşlıq müqaviləsinin imzalanması (2021) və s. həyata keçirilən möhtəşəm layihələrdən sadəcə bir neçəsidir [33].Milli və dini zəmində münaqişələrin artma tendensiyasının, sivilizasiyalararası dialoqda bir sıra problemlərin ortaya çıxdığı hazırkı dövrdə Azərbaycanın mövqeyi həqiqətən nümunə təşkil edir. Məsələyə diqqət yönəldən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında məsələyə diqqətləri yönəldərək bildirirdi:

> *“Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik” [35]. Bəli, ölkəmizdə multikulturalizm və tolerantlıq əsrlərdir həyat tərzinə çevrilmişdir. Təbii ki, heç bir ənənə birdən-birə, öz-özünə yaranmır və möhkəmlənmir. Hər bir ənənə müəyyən bir dünyagörüşünün məhsuludur. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin dili ilə desək, “yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür”.*

Ölkəmiz bu sahədə zəngin təcrübəsini dünya ölkələri ilə bölüşmək və dünyada tolerantlığa töhfə vermək istəyi əzmindədir. Bu məqsədlə ölkəmiz beynəlxalq miqyaslı bir sıra layihələrə imza atmışdır. Məsələn, son illərdə Azərbaycanda keçirilən “Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru” mövzusunda keçirilən “Beynəlxalq Bakı konfransı” (6 noyabr 2009), “Dünya Dini Liderlərinin Bakı sammiti” (26 aprel 2010), “Dəyişən dünyada tolerantlığın gücləndirilməsi” mövzusunda “I Beynəlxalq Bakı Forumu” (19-21 dekabr 2012) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, ATƏT Demokratik Təsisatlar və insan Hüquqları Bürosunun birgə təşkilatçılığı ilə həyata keçirilən “Qeyri ayrı-seçkilik və tolerantlığın təşviqinə dair dinlərarası dialoq” (10-11 oktyabr 2016 ) mövzusunda ikigünlük seminar və s. söylədiklərimizə əyani misallardır.

Hazırda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən “Xristian irsimizi tanıyaq”, “İslam irsimizi tanıyaq” layihələri icra olunmaqdadır. Layihə çərçivəsində ölkə ərazisində xristian və İslam dininə aid olan və dövlət tərəfindən qorunan ibadətgahlara (məscid, kilsə, monastr) dair qısa videoçarxlar təqdim olunur.

**Azərbaycanda multikulturalizm**

Tolerantlıq və multikulturalizm anlayışları məzmunca çox yaxın olsalar da, bir-birilə eyniləşdirilməməlidir. Anlayış kimi 1960-ci ildə Kanadada ortaya çıxan multikultulturalizm terminin hərfi mənası çoxmədəniyyətlilik deməkdir. Geniş anlamda yanaşsaq, multikulturalizm humanist dünyagörüşü və ona uyğun eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüququnu tanıyan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütünlükdə dünyada millətlərin və məzhəblərin insanlarının mədəni müxtəlifliyinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətin milli titul mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Hazırda müəyyən dairələr tərəfindən multikulturalizm bütün mədəniyyətlərin bir mədəniyyətdə birləşməsini nəzərdə tutan “əridici qazan” konsepsiyasına qarşı qoyulur. Beləliklə qeyd edə bilərik ki, multikulturalizm həm də cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasını təmin edən siyasət modelidir.

Multukiltural mühit o zaman güclənir və inkişaf edir ki, dövlət siyasəti səviyyəsində ona diqqət edilir. Azərbaycan məhz belə ölkələrdəndir. Dövlətimizin multikulturalizm siyasəti yürütməsinin əsaslı səbəbləri var. Əvvəla ona görə ki, ölkəmiz çox mədəniyyətlilik baxımından olduqca zəngindir. Hələ vaxtikən Strabon yazırdı ki, Albaniya (indiki Azərbaycan) əhalisi 26 dildə danışan tayfalardan ibarətdir. Mənbələrdə Qafqaz

Albaniyasında yaşayan tayfalar arasında udilər, qarqarlar, sovdelər, kaspilər, maqlar, sisaklar, mardlar, amardlar, ariaklar, anariaklar, amazonkalar, qellər və leqlərin adları çəkilməkdədir. Eramızın ilk illərində Sasanilərin köçürmə siyasətilə əlaqədar olaraq Albaniyaya irandilli tayfalar köçürülmüşdü. Ərəb istilasından sonra Sasanilər kimi onlar da köçürmə siyasəti yürüdərək xeyli ərəb mənşəli əhalini torpaqlarımızda yerləşdirmişdilər. Monqol istilası zamanı və Rusiya imperiyası dövründə də müəyyən tayfaların köçü və yaxud köçürülməsi davam etmişdi. Göründüyü kimi yerlilərlə yanaşı gəlmələr də ölkəmizin etno-mədəni müxtəlifliyinin formalaşmasında müəyyən rol oynamışlar.

Bu gün Azərbaycanda ləzgilər, avarlar, tatlar, talışlar, saxurlar, kürdlər, udinlər, ingiloylar, buduqlular, yəhudilər, ruslar, gürcülər, ermənilər, ukraynalılar, məhsəti türkləri və s. kimi azsaylı xalqlar, etnik və milli azlıq nümayəndələri yaşamaqda və öz mədəni müxtəlifliklərini qorumaqdadırlar. Ölkəmizdə bu məsələ dövlət müstəqilliyimizin bərpasından sonra həmişə gündəmdə olmuşdur. Məsələn, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa edəndən sonra BMT-yə üzv (1992) olan kimi atdığı ilk addımlardan biri “milli, etnik, dini və dili azlıqlara mənsub şəxslərin hüquqları ilə bağlı Bəyənnamə” və “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Beynəlxalq Konvensiya”ya qoşulmuşdur. Bundan başqa hələ 1990-cı illərin əvvəllərində “ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır” demiş və onların hamısını “Azərbaycançılıq ideologiyasını”nın ətrafında birləşdirə bilmişdi mərhum dövlət başçımız Heydər Əliyev. Bunlarla yanaşı, “Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında” 1992-ci il 16 sentyabr tarixli fərman, 1995-ci ildə referendumla təsdiqlənmiş Azərbaycan Respublikasının Konstitusiyası və s. müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə dövlətimizin bu məsələlərə siyasi-hüquqi münasibətinə dair ilkin nümunələrdəndir.

Azərbaycan Respublikasının Konstitusiyasında deyilir:

> *“İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyinə, əqidə, siyası və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır.” (Maddə 25);*
>
> *“Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.” (Maddə 44);*

*“Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.” (Maddə45).*

Azərbaycan Respublikasının qanunvericiliyinə (Cinayət Məcəlləsi 109-cu maddəsi, Cinayət-Prosessual Məcəllənin 26-cı maddəsi, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanununun 3-cü maddəsi, “İctimai televiziya və radio yayımı haqqında” Qanunun 7.0.7-ci maddəsi, Seçki Məcəlləsinin 3-cü maddəsi, Əmək məcəlləsi və s.) istinad etməklə multikulturalizmin hüqüqi bazasının ölkəmizdə zəngin olmasına dair çox sayda belə nümunələr göstərmək olar. Lakin biz, “Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu”nun müvafiq maddələrini qeyd etməklə kifayətlənmək istəyirik. Belə ki, qeyd olunan qanunun III fəslində bildirilir:

*“Mədəniyyət sahəsində dövlət tərəfindən aşağıdakı bərabərliklər təmin edilir:*

*- dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların mədəniyyətinin hüquq və azadlıqlarının bərabərliyi ( maddə 6.3.1) ;*

*- dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların öz mədəniyyətlərini qorumaq, öz mədəni kimliklərini müəyyən etmək, mədəni sərvətlərini bərpa etmək, gücləndirmək və inkişaf etdirmək bərabərliyi” (maddə 6.3.2).*

YUNESKO-nun 20 oktyabr 2005-ci il tarixli “Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya”sına 2009-cu ildə ölkəmizin qoşulmasını da bura əlavə edə bilərik.

Göründüyü kimi ölkəmizdə multikulturalizm siyasətinin aparılması nəticəsində əlaqəli sahə üzrə zəngin hüquqi baza formalaşdırılıb. Bundan əlavə dövlətimiz multikulturalizmin təşviqi baxımından əməli addımlar atmışdır. Bununla əlaqədar olaraq, respublika ərazisində yaşayan milli azlıq və xalqların mədəni dəyərlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu tərəfindən bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin (2018-ci ildən AR. Mədəniyyət Nazirliyi) təşkilatçılığı və İctimai Televiziya ilə birgə Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, habelə xalqlar arasında qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədi ilə “Azərbaycan-doğma diyar” devizi altında 5 dəfə (2006, 2008, 2011, 2014, 2016 –cı illərdə) “Azsaylı Xalqların İncəsənəti festivalı” keçirilmişdir. Bu sahə üzrə Heydər Əliyev Fondunun dəstəyi ilə

həyata keçirilən çoxsaylı işlərdən biri də 2016-cı ilin dekabrın 5-də təqdimatı keçirilən "Bir günəş altında" adlı sənədli filmdir. Ölkəmizdə "Multikulturalizm ili" çərçivəsində ərsəyə gələn sözü gedən film Azərbaycanda yaşayan, müxtəlif mədəniyyət, adət-ənənə, fərqli dil və dini etiqada sahib olan azsaylı xalqların və etnik qrupların həyatından bəhs edir.

Hazırda respublikamızda dövlətimizin diqqət və qayğısı ilə əhatələnmiş onlarla milli mədəniyyət mərkəzləri, müxtəlif icmalar və birliklər fəaliyyət göstərir. Bunların sırasında "Ukrayna cəmiyyəti", "Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi", "Rus icması", "Alman-Azərbaycan cəmiyyəti", "Azərbaycan-İsrail cəmiyyəti", "Yəhudi Mədəniyyət Mərkəzi", "Azərbaycan Yəhudiləri Cəmiyyəti", "Talış mədəniyyət mərkəzi", "Kürd Mədəni Mərkəzi", "Ləzgi Mədəni Mərkəzi", "Avar cəmiyyəti", "Masallı Halay folklor kollektivi", "Udin mədəniyyət mərkəzi", Axıska türklərinin "Vətən" cəmiyyəti" və s. qeyd etmək olar. Həmçinin, Qusar rayonunda Ləzgi Dövlət Dram Teatrı, Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində Gürcü Dövlət Dram Teatrı, Bakı şəhərində S.Vurğun adına Rus Dram Teatrı fəaliyyət göstərir. Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla Teatrlarında isə azərbaycan bölmələri ilə yanaşı rus bölmələri də mövcuddur.

Dünyanın bir sıra ölkələrində assimilyasiya, izolyasiya və aparteid kimi yanlış siyasi modellərin tətbiq olunduğu bir vaxtda ölkəmizdəki multikulturalizm modeli və siyasəti xüsusi əhəmiyyət kəsb edir. Azərbaycandakı mövcud durum əyani göstərir ki, xalqlar qarşılıqlı hörmət əsasında bir-birilə dostluq və əmin-amanlıq içərisində mehriban yaşaya bilərlər. Qeyd olunanlara əsaslanaraq belə bir mülahizə yürüdə bilərik ki, Azərbaycan multikulturalizmi modelinin uğurlu alınmasının bir sıra obyektiv və subyekv tərəfləri var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında ölkəmizdə multikulturalizmin meydana gəlmə səbəblərinə toxunaraq qeyd etmişdi:

"Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar" [3. s 11].

Bəli, tarixən ölkəmizdə müxtəlif xalqların, etnik birliklərin və milli azlıqların yanaşı yaşaması, onların bir-birilərinin mədəni və mənəvi dəyərlərinə hörmətlə yanaşması, bir sözlə multikultural mühitin və tolerantlığın hakim olması kimi amillər obyektiv faktorlar kimi dəyərləndirilməlidir. Subyektiv səbəblərə gəldikdə isə deyə bilərik ki, bu

dövlət siyasətinə bağlı səbəblər kimi nəzərdən keçirilməlidir. Məhz multikulturalizmin dövlət siyasəti səviyyəsinə qaldırılması, cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində məqsədyönlü və ardıcıl işlərin (təbliğat, təşviqat və s.) aparılması onu daha da gücləndirir.

***Bu baxımdan Azərbaycanda vəziyyət necədir?***

Ölkəmizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanması və multikulturalizmin təşviqi siyasəti aparılır. Azərbaycan Respublikasının Prezidentinin 15 may 2014-cü il tarixli Fərmanı ilə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi"nin yaradılması, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi və 11 mart 2016-cı il tarixli Sərəncamla "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiqlənməsi, 2019-2020-ci il tədris ilindən ölkənin bütün ali təhsil məktəblərinin bakalavr səviyyələrində "Multikulturalizmə giriş" fənninin tədris olunması və s. multikulturalizmə münasibətinin əyani göstəricilərindən bir neçəsidir.

Dövlətimizin ali rəhbərliyinin multikulturalizm siyasətinə böyük önəm verməsi özünü xarici siyasətimizdə də büruzə verir. Təsadüfi deyil ki, son illərdə Azərbaycan Respublikasının Prezidentinin rəhbərliyi və himayəsi altında mədəniyyətlərarası, dinlərarası və sivilizasiyalararası dialoqlara həsr olunmuş onlarla beynəlxalq tədbir keçirilmişdir. "Bakı prosesi" çərçivəsində təşkil olunan mötəbər tədbirlərin hər biri Azərbaycanın müvafiq məsələlərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsinə yönəlmişdir.

**Mədəniyyətlərarası dialoqa töhfə - Bakı Prosesi**

"Bakı prosesi" - mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür.

Mədəniyyətlərarası dialoq - müxtəlif etnik, mədəni, dini və linqvistik mənsubiyyətlərə və irsə malik fərdlər və qruplar arasında qarşılıqlı anlaşma və hörmət əsasında açıq və nəzakətli fikir mübadiləsidir [5, s 234].

Məlumdur ki, başqa mədəniyyətləri qəbul etməyən insanlar, onu tanımadıqları üçün nifrət etməyə, qüvvə tətbiq etməyə, "düşmən" hesab etməyə meylli olurlar. "İnsan bilmədiyi şeyin düşmənidir" deyirdi müdriklərdən biri.

Dialoq yolu, qarşılıqlı təmaslar və ya ünsiyyət vasitəsilə, tanışlıqlar yarandıqca bu problemin çözüləcəyinə inanırıq.

Avropa ilə Asiya arasında, müxtəlif mədəniyyət və sivilizasiyaların kəsişməsində yerləşən Azərbaycanda əsrlər boyu fərqli etnik, dini köklərə malik xalqlar yan-yana, mehribanlıq şəraitində yaşayıblar. Bu unikal

geosiyası mövqeyi Azərbaycanda multikultural və tolerantlıq mühitinin formalaşmasında və inkişafında, milli və dini dözümlülüyün həyat tərzinə çevrilməsində öz əvəzsiz rolunu oynamışdır.

Etnik, mədəni və dini müxtəlifliklərin qorunması məsələsinin, birgəyaşayış və tolerantlığın yüksək səviyyədə təmin olunduğu Azərbaycan bu sahədə zəngin təcrübəsini bölüşmək əzmindədir.

Sual oluna bilər ki, öz daxilində qarşılıqlı anlaşma, birgəyaşayış, müxtəlifliklərin qorunması və tolerantlığı təmin etmişkən və hər bir ölkədə olduğu kimi Azərbaycanda da həll olunmalı kifayət qədər məsələ varkən, belə bir qlobal miqyaslı problemi qabartmaq və həllinə töhfə vermək istəməsi dövlətimizin nəyinə lazımdır?

Fikrimizcə qlobal təhlükələrin aradan qaldırılmasında hamı, hər kəs, bütün dövlətlər maraqlı olmalıdırlar. Çünki, bu təhlükələr bütün insanların həyatını, bütün dövlətləri bilavasitə və ya dolayı yolla təhdid edə biləcək tendensiyalardır. Məhz birgə səylərlə, müsbət təcrübələrin öyrənilməsi və tətbiqi ilə bəşəriyyəti təhlükəli meyillərdən xilas etmək mümkündür.

Coğrafi-siyasi və mədəni-mənəvi baxımdan Azərbaycanın belə təşəbbüslərlə çıxış etməsinə haqqı çatır. Azərbaycan Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan, multikultural təhlükəsizliyin, o cümlədən tolerant mühitin yüksək səviyyədə təmin olunduğu qəbul edilən dünyanın azsaylı ölkələrindən biridir.

Multikulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsində dəstəklənməklə yanaşı, interkulturalizmə də (latın dilindən tərcümədə “mədəniyyətlərarası” deməkdir) əhəmiyyətli töhfələr vermişdir. Son illərdə müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən mötəbər tədbirlərlə ölkəmiz dünyanın mədəniyyət və mədəniyyətlərarası dialoq, o cümlədən də dinlərarası dialoq mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və himayəsi altında həyata keçirilən tədbirlər siyasi leksikona “Bakı prosesi” adı ilə daxil olmuşdur [24]. Bu prosesin təməli Azərbaycanda-paytaxt Bakıda qoyulmuşdur. 2008-ci ildə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin toplantısına bizim tərəfimizdən İslam ölkələrinin nümayəndələri dəvət olunmuş və birgə səmərəli tədbirin- *“Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır”* adlı Beynəlxalq konfransın sonunda Mədəniyyətlərarası dialoqunun təşviqinə dair “Bakı Bəyannaməsi” qəbul edilmişdir. 2009-cu ildə isə İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş VI toplantısına Azərbaycanın təşəbbüsü ilə Avropa ölkələrinin nümayəndələri

dəvət olunmuş və bu formatda bir daha görüş keçirilmişdi. 2010-cu ilin 23 sentyabr tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti Bakıda Ümümdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyini elan etmiş və altı ay sonra, konkret tarixlə göstərsək, 2011-ci ilin 7–9 aprel tarixində 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunmuşdu.

Son illərdə ölkəmizdə beş dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (2011, 2013, 2015, 2017 və 2019-cu illərdə), altı dəfə "Bakı Beynəlxalq Humanitar Forumu" (2013, 2014, 2015, 2016, 2017, 2018 və 2019-cu illərdə) və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu ( 2016) keçirilmişdir.

"Bakı Prosesi" çərçivəsində təşkil olunan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu və Bakı Beynəlxalq Humanitar Forumlarında 180-dən çox ölkədən və 40-dan çox beynəlxalq təşkilatdan ümumilikdə 20 mindən çox xarici nümayəndə –dövlət və hökumət rəsmiləri, beynəlxalq qurumların rəhbərləri, diplomatlar, mədəniyyət, təhsil və elm xadimləri, qlobal biznes və media strukturlarının təmsilçiləri, gənclər və s. kateqoriyadan olan insanlar iştirak etmişdir.

"Bakı Prosesi" çərçivəsində Azərbaycanın təşəbbüsü əsasında Avropa, Asiya, Amerika, Afrika, Avstraliya qitələrinin iştirakı ilə "5A-Mədəniyyətlərarası Əməkdaşlıq Platforması" təsis edilmiş və qeyd olunan forumlarda ümumilikdə 250-dən çox tədbir və layihə həyata keçirilmişdir [14]. Təkcə Ümümdünya Mədəniyyətlərarası dialoq Forumları zamanı təşkil olunan tədbirlərdən bir neçəsinin adını qeyd etməklə görülən işlərin nə qədər mühüm olmasını nəzərə çatdırmaq istərdik:

❖ *Birinci Forum çərçivəsində keçirilmiş sessiyalar:*

"Sülh və dialoqa nail olmaq üçün mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik";

"Dünya dinləri arasında mədəniyyətlərarası dialoq";

"Texnologiya, sosial media və jurnalistikanın mədəniyyətlərarası əlaqələrə təsiri";

"Mədəniyyətlərarası dialoqu və əməkdaşlığın inkişafına dair yeni təşəbbüs və layihələrin təqdimatları";

- *Konfrans:*

Müasir dünyada dialoq fəlsəfəsi və mədəni müxtəliflik mövzusunda beynəlxalq konfrans (Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə).

- Sərgi:

 p-ISSN 2616-6879
e-ISSN 2617-751X

“Yəhudilər, Xristianlar və Müsəlmanlar: Mədəniyyətlərarası dialoq orta əsr əlyazmalarında” (Azərbaycan və Avstriyanın birgə təşkilatçılığı ilə).

- *İkinci Forum çərçivəsində keçirilmiş sessiyalar:*
“Qloballaşmanın Yeni Erası: Dəyişən dünyada mədəniyyətdə hibritləşmə”;
“21-ci əsr üçün mədəniyyətlərarası bacarıqların qurulması”;
“Qərb-Müsəlman əlaqələri: qarşıdurmadan əməkdaşlığa”;
“Mədəni müxtəliflik üçün ictimai dəstəyi necə qurmaq lazımdır?”;
“Turizm-insanlar və mədəniyyətlər arasında qarşılıqlı anlaşma və tolerantlığın əsas aparıcısı kimi”.
- *Üçüncü forum çərçivəsində keçirilən seminarlar:*
“Multikulturalizm: gələcək vəd edən həqiqətlər”;
“Xalqlar, mədəniyyətlər və sivilizasiyalar arasında tolerantlıq, anlaşma və dialoqun təşviqi naminə bir vasitə kimi turizmin imkanlarından yararlanmaq”;
“Təhsil vasitəsilə birgə yaşamağı öyrənmək: siyasətdən təcrübəyə”;
“Gənclər- sosial dəyişikliyin təmsilçiləri: sülh və dialoq prosesinə töhfə verənlər”;
“Mədəniyyətlərarsı dialoq naminə müsəlman dünyasının dini rəhbərləri ilə tərəfdaşlıq”.
- *Dördüncü Forum çərçivəsində keçirilən sessiyalar:*
“Qütbləşmə əsrində inklüziv dialoq”;
“Mədəniyyətlər arasında dialoqun təşviqində şəhərlərin rolu”;
“Mədəniyyətlərarası dialoq vasitəsilə dinc münasibətlərin qurulması” və s. [36].

Göründüyü kimi “Bakı Prosesi” mədəniyyətlərarası dialoqun, multikulturalizmin möhkəmləndirilməsi, ölkələr və regionlar arasında dinc yaşayış və rifahın yayılmasında əvəzsiz rol oynayır. Məhz “Bakı prosesi”ndən sonra bir sıra ölkələrin və beynəlxalq qurumlar tərəfindən birgəyaşayış və dözümlülük, dini dialoq və mültikulturalizmin təşviqi üçün müxtəlif təşəbbüslərin irəli sürüldüyünün şahidi oluruq. Belə ki, bu sahədə Avropada keçirilmiş bir sıra tədbirlərin adını qeyd etmək olar:

24-25 aprel 2017-ci ildə Afinada (Yunanıstan) “Qədim sivilizasiyalar forumu”nun nazirlər səviyyəsində birinci görüşünün təşkili və “Qədim sivilizasiyalar forumu”nun (GC10) qurulması;

30-31 oktyabr 2017-ci ildə Afinada keçirilmiş “Dini və mədəni plüralizm və Orta Şərqdə sülh içərisində mövcudluq” adlı 2-ci beynəlxalq konfrans [37].

Sevindirici haldır ki, Azərbaycanın təşəbbüsləri maraqla qarşılanır və beynəlxalq dəstək görür. Birləşmiş Millətlər Təşkilatının Baş katibi 2017,

2018 və 2019-cu illərdə BMT Baş Assambleyasına təqdim etdiyi məruzələrində Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, ICESCO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Dünya Turizm Təşkilatı və Avropa Şurasının tərəfdaşlığıilə keçirilən "Bakı prosesi"ni xüsusi vurğulayaraq Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu mədəniyyətləarası və dinlərarası dialoq sahəsində BMT-nin əsas qlobal platforması elan etmişdir".[14]

**Nəticə**

Araşdırmalarımız göstərdi ki, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı, başqa sözlə desək İslam və Qərb sivilizasiyaları arasında münasibətlərin inkişaf etdirilməsində "Bakı Prosesi" çərçivəsində həyata keçirilən tədbirlərin xüsusi rolu olmuşdur. Bu baxımdan insanlar, xüsusən də dünya dövlətlərinin hökümətləri arasında mədəniyyətlərarası dialoqun təbliğ edilməsi, bir çox etnik qruplar arasında əməkdaşlığın və dözümlülüyün gücləndirilməsi, həmçinin müxtəlif qitələrdə yaşayan xalqların mədəni əməkdaşlığının təşviqi məqsədilə bu tədbirlərin davam etdirilməsini zəruri hesab edirik. Ölkəmizdəki təcrübə göstərir ki, etnik, mədəni və dini müxtəlifliklərin mövcudluğu ilə birgəyaşayış mümkündür və bu rəngarənglik xalq tərəfindən qəbul edildikdə, eyni zamanda düzgün dövlət siyasəti aparıldıqda istənilən cəmiyyətdə uğurlu alına bilər.

Biz inanırıq ki, müxtəlif platformalarda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olub problemləri açıq şəkildə müzakirə edərək öz fikirlərini ifadə etsə, dialoq yolu ilə cəmiyyətlər arasında ümumi anlaşma, birgəyaşayış və mədəni çeşidliyin qorunması təmin oluna bilər və eyni zamanda mədəniyyətlər arasında yeni körpülər qurular və tanışlq yaranar, nəticədə bəşəriyyətin təhlükəsiz gələcəyi üçün dünyada sülhün bərqərar olunmasına töhfə verilmiş olar.

## *Ədəbiyyat siyahısı (References)*

1. Azərbaycan Respublikasının Konstitusiyası, 2012. Bakı "Biznes xəbərləri" qəzeti, 64 s.
2. Aslanova Rəbiyyət. 2004. Qloballaşma və mədəni müxtəliflik. Bakı: «Elm», - 264 s.
3. Azərbaycanda multikulturalizm: 2016. biblioqrafiya. Bakı, 504 s.
4. Bakıda "Mədəniyyətlərin müxtəlifliyi və müasir dünyada dialoq fəlsəfəsi" mövzusunda beynəlxalq konfrans işə başlamışdır.// "Azərbaycan" qəz., 2011-ci il, 8 aprel

5. Əhədova S.A. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı, Elm, 2014, 348 s.
6. Xəlilov S.S. 2009. Sivilizasiyalararası dialoq. Bakı, Adiloğlu, 258 s.
7. Альфред Вебер. 1999. Избранное: Кризис европейской культуры. Санкт-Петербург, с. 248
8. Hüseynov Sakit. 2012. “Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik”. Bakı, “Təknur”, 176 s.
9. Samuel P. Hungtington. 1996. The Clash of Civilizations and the Remarking of World Order. Simon and Schuster. N.Y., p.367
10. Kumilcka W. 1995. Multicultural Citizenship. Oxford: Clareton Press, p. 346
11. Multicultural Europe: Illusion or Reality. Budapest: UNESCO, 1999, p. 178

***İnternet resursları***

12. “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, http://e-qanun.az/framework/39127
13. “Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidnetinin Fərmanı
http://www.e-qanun.az/alpidata/framework/data/4/f_4392.htm
14. Azərbaycan Respublikası Prezidentinin “Bakı Prosesi” qlobal təşəbbüsünün 12 ili tamam olur.
http://mct.gov.az/az/umumi-xeberler/13358
15. Azərbaycan Respublikası Prezident Adminstrasiyasının strukturu (https://president.az/administration/structure)
16. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında İlham Əliyevin nitqi
https://president.az/articles/19727/print
17. Baku Process
https://bakuprocess.az/baku-process/about-process/
18. “Cultivating peaceful relations through Intercultural Dialogue” session held as part of Baku 4th World Forum on Intercultural Dialogue https://bakuprocess.az/cultivating-peaceful-relations-through-intercultural-dialogue-session-held-as-part-of-baku-4th-world-forum-on-intercultural-dialogue/
19. First Academic Forum of UNESCO Chairs on Intercultural and Interreligious Dialogue
https://en.unesco.org/events/first-academic-forum-unesco-chairs-intercultural-and-interreligious-dialogue
20. Islamophobia has become the driving force behind the rise of far-right movements in the UK, according to an anti-racism charity.
https://www.bbc.com/news/uk-47280082
21. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/25303

22. Opening ceremony, 4th World Forum on Intercultural Dialogue (5-6 May 2017, Baku, Azerbaijan) http://webtv.un.org/watch/opening-ceremony-4th-world-forum-on-intercultural-dialogue-5-6-may-2017-baku-azerbaijan/5422920167001
23. Racism, Xenophobia Increasing Globally, Experts Tell Third Committee, amid Calls for Laws to Combat Hate Speech, Concerns over Freedom of Expression https://www.un.org/press/en/2016/gashc4182.doc.htm
24. The Baku Process: An Effective Cultural Diplomacy Momentum of Azerbaijan https://moderndiplomacy.eu/2018/02/04/baku-process-effective-cultural-diplomacy-momentum-azerbaijan/
25. UN General Assembly: World Forum ‘a key global platform for promoting intercultural dialogue’ https://bakuprocess.az/un-general-assembly-world-forum-a-key-global-platform-for-promoting-intercultural-dialogue/
26. UN Secretary-General: Baku Process has been at the forefront of advocating for dialogue among cultures since 2008 https://bakuprocess.az/un-secretary-general-baku-process-has-been-at-the-forefront-of-advocating-for-dialogue-among-cultures-since-2008/
27. 3rd World Forum on Intercultural Dialogue: “Sharing Culture for a Shared Security” https://en.unesco.org/events/3rd-world-forum-intercultural-dialogue-sharing-culture-shared-security
28. 4 th World Forum on Intercultural Dialogue https://www.coe.int/en/web/deputy-secretary-general/-/4th-world-forum-on-intercultural-dialogue?desktop=true
29. 4th World Forum on Intercultural Dialogue Kicks Off in Baku https://www.novinite.com/articles/180082/4th+World+Forum+on+Intercultural+Dialogue+Kicks+Off+in+Baku
30. 5th World Forum on Intercultural Dialogue https://en.unesco.org/events/5th-world-forum-intercultural-dialogue
31. 5th World Forum on Intercultural Dialogue May 2, 2019 - May 3, 2019 Baku, Azerbaijan https://www.unaoc.org/event/5th-world-forum-on-intercultural-dialogue/
32. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az/framework/25303
33. https://heydar-aliyev-foundation.org/en/content/blog/71/PROJECTS
34. https://multiculturalism.preslib.az/az_documents-uGoBepJdVU.htm
35. https://president.az/articles/19727/print
36. https://az.wikipedia.org/wiki/Bak%C4%B1_prosesi
37. http://mct.gov.az/az/umumi-xeberler/baki-prosesi-10-il-erzinde-aparilan-medeni-diplomatiya

**Annotation**

**Seyran Guliev**

**The essence of the Azerbaijani model of intercultural dialogue**

Distinguished by its ancient history, favorable geopolitical position and rich ethnic composition, Azerbaijan is a place where different cultures and religions meet, enter into dialogue and live in harmony. The historically tolerant and multicultural environment in Azerbaijani society, in other words, the transformation of tolerance and multiculturalism into a way of life, has allowed the preservation of the traditions of different cultures, civilizations and religions. Unlike our country, the increase of intolerance, violence, extremism, xenophobia, Islamophobia and the destruction of cultural and historical heritage observed in different countries of the world today are of concern. In this case, there is a serious need to strengthen intercultural dialogue, to jointly combat and promote all forms of negative tendencies. It is important that all countries make special efforts to achieve this goal. No one is able to solve global problems alone.

In recent years, our country has hosted dozens of prestigious international events dedicated to these issues, and Azerbaijan has initiated the Baku Process.

In this article, looking at tolerance and multiculturalism in Azerbaijan, we try to reveal the essence of the Azerbaijani model of intercultural dialogue and emphasize our country's contribution to overcoming the above negative trends in the example of the Baku Process.

**Key words:** tolerance, the tradition of tolerance in Azerbaijan, multiculturalism, multiculturalism in Azerbaijan, intercultural dialogue, “Baku Process”.

**Аннотация**

**Сейран Гулиев**

**Суть Азербайджанской модели межкультурного диалога**

Отличающийся своей древней историей, выгодным геополитическим положением и богатым этническим составом, Азербайджан - это место, где различные культуры и религии встречаются, вступают в диалог и живут в гармонии друг с другом. Исторически толерантная и мультикультурная среда в азербайджанском обществе, другими словами, превращение толерантности и мультикультурализма в образ жизни позволило сохранить традиции

различных культур, цивилизаций и религий. Этот фактор представил нашу страну как многонациональную и многоконфессиональную страну, где обеспечивается высокий уровень толерантности и мультикультурализма, а также как место, где ведутся межцивилизационные и межкультурные диалоги. В отличие от нашей страны, рост нетерпимости, насилия, экстремизма, ксенофобии, исламофобии, разрушение культурного и исторического наследия, наблюдаемый сегодня в разных странах мира, не может не вызывать беспокойства. В этой ситуации следует принимать меры по предотвращению любых негативных тенденций, например, межкультурного диалога. Важно, чтобы все страны приложили особые усилия для достижения этой цели. Никто не может решить глобальные проблемы в одиночку.

В последние годы в нашей стране были проведены десятки престижных международных мероприятий, посвященных этим вопросам, в результате которых Азербайджан выступил инициатором Бакинского процесса.

В представленной статье, учитывая толерантность и мультикультурализм в Азербайджане, мы пытаемся раскрыть суть азербайджанской модели межкультурного диалога и подчеркнуть вклад нашей страны в устранение этих негативных тенденций посредством «Бакинского процесса»

**Ключевые слова:** толерантность, традиции толерантности в Азербайджане, мультикультурализм, мультикультурализм в Азербайджане, межкультурный диалог, «Бакинский процесс».